SƏFA RƏŞİD

Ayrılığı sal yadıma…

ADİLOĞLU
Bakı – 2019

Redaktor: **Aysel XANLARQIZI SƏFƏRLİ**

Bədii redaktor: **Nəcibə İLKİN**

Rəssam: **Sehran ALLAHVERDİ**

Səfa RƏŞİD. Ayrılığı sal yadıma.
Bakı, ADİLOĞLU nəşriyyatı, 2019, 128 səh.

Səfa Rəşid 90-cı illərdən ədəbiyyata gələn şairlərdəndir. Yetərincə tanınan və sevilən imzalardandı. Şeirlərində lirizm, poetizm, bədii-estetik zövqün "lirik mən"ində özünü etiva edir. İçindəki vətən sevgisi, azadlıq eşqi, insana, təbiətə, doğmalara məhəbbət hissləri sədaqətinin gücündə dilə gəlir. Oxucularının və qələm dostlarının gözlərini çoxdandı yolda qoyan şair Səfa Rəşidin kitabı inanırıq ki, hər kəsin ürək sirdaşı olacaq.

4722110018
121 - 2019 qrifli nəşr

© S. Hüseynov, 2019

ŞEİRLƏR

Ayrılığı sal yadıma…

Ömür bitdi... gün olmadı mənimki,
Bir gülərüz üzdə qalıb min ahım.
Bundan belə darıxmağa nə var ki,
Ayrılığı sal yadıma, darıxım…

Ayrılığı sal yadıma, darıxım,
Beli kəmər çiçəklərə əlvida.
Arzular var, ürəyimdə bir qubar,
Açılmayan ləçəklərə əlvida.

Ayrılığı sal yadıma, darıxım,
Şeir var ki, ürəyimin özüdü.
Bir həftəlik deyil axi ayrılıq,
Dodağımın isinməyən sözüdü.

Ayrılığı sal yadıma, darıxım,
Səndən sonra dərdlərim var, təzədi.
Kürəyimdə ağrıların yenisi,
Əllərimi barmaq izin bəzəmir...

Ayrılığı sal yadıma, darıxım,
Bir ağrı ol, ürəyimi sıx indi.
Sən özün də darıxmağı sevirsən,
Darıxmırsan, ürəyimdən çıx indi...

Üşüyürəm, əzizim...

Günəş yenə uzaqlara çəkilib,
Qayğısızdır, o dalğalı dənizim.
Sənsizliyin yorğanına bükülüb,
Üşüyürəm, üşüyürəm, əzizim.

Ayrılıqmı qonaq gəldi vədəsiz?!
Sahilinə ayaq qoymaz gəmilər.
Çiçəklər də boynubükük böyüyür,
Əlacsızdı bu sarmaşıq zəmilər.

Heç gecikmə, mən vəfasız çıxmamış,
Axtarma gəl, bir ürəyi daş məni.
Süz, bu gecə həsrətinə qovuşdur,
Elə boğma gözlərində yaş məni.

Uzaq durdum, yollar çəkdi içini,
Nədən düşdüm arxasınca zülümün?!
Bir ömürlük şəfqətinə sarılıb,
Arxasında gizlənmərəm ölümün.

Yalnızlıq da yuvasına çəkilib,
Saçlarında sığallanmır həvəsim.
Gözlərinin ümidinə dikilib,
Gözləyirəm, gözləyirəm, əzizim...

Yenə yaxınlaşdım uçuş xəttinə

Yenə uzaqlara ötürdün məni,
Yenə gözlərimdə rəsmin tutulur.
Çiçək nəfəsini zəhər uduram,
Boğazım agrıyır, səsim tutulur.

Bu necə yazıdı, oxumaq olmur,
Fələyin yazısı nədir, xətti nə?
Məni uzaqlarda bitirmək üçün,
Yenə yaxınlaşdım uçuş xəttinə.

Oturub təkliyin küncündə yenə,
Çıxırsan eşiyə, karıxır adam.
Sənincün bir gecə darıxmaq olmur,
Bütün gecələri darıxır adam.

Bu qəhər də boğur məni beləcə,
İsti göz yaşlarım içimə axır.
Bu ömür mənimçün roman təkliyi,
Sənincün bir həsrət nağılı çıxır.

Yenə uzaqlara ötürdün məni,
Yenə gözlərimdə rəsmin tutulur.
Çiçək nəfəsini zəhər uduram,
Boğazım agrıyır, səsim tutulur.

Qarğışlarım var

Bu gün dişimdədi ağrıyan canım,
Dərdi öldurməyə xəlvət gəzirəm.
Adamın nə qədər ağrısı olar?
Bezirəm, bezirəm, vallah, bezirəm.

Çıxıram eşiyə, könlum açılır,
Qayıdıb içimə-zəli oluram.
Sənin nəfəsində hava gəzirəm,
Belə havalanıb dəli oluram.

Elə hey, yağmurlu hava kimiyəm,
Tutqunam, yağmayan yağışlarım var.
Qorxma, xətər gəlməz məndən ömrünə
Səni sevə bilən qarğışlarım var.

İnsaf et, sən məni özundən qoru,
Geri dön, ömrümün düşərdüşməzi!
Hələ öz dərdimə sığal çəkirəm,
Hələ gözləyirəm gedər gəlməzi.

Ağrısını ürəyinə geydiyin…

Cəzasını vermək olmur həsrətin,
Son yarpaqsan, soldurursan rəngini.
Bir qadının ürəyində qeyb olub,
Ömür boyu gözləyirsən zəngini.

Elə hər gün alnını qırış tutur,
Bu şəhərdə bircə sənsən üşüyən.
Ürəyində niyyət tutub, ad tutub,
Təkcə sənsən umidləri daşıyan.

Öz aldığın silahlara gülləsən,
Öz ağrına məlhəm deyil sevdiyin.
Səni yollar ayrıcında tək qoyub,
Ağrısını ürəyinə geydiyin.

Yığın, küçə-küçə bizi…

Uzaqlara nə pay düşər,
Verin, gülə-gülə, verin.
Qürbət elə nəvə payı
Verin, bilə-bilə, verin.

Arzular var, yuxusu daş,
Gözü yolda o, qaraqaş.
Nazlı qızlar qalıb caşbaş,
Qar ömrünü külə verin.

Bizim qızlar qəm qoxusun,
Yanağına nəm toxusun.
Sevgimizin ən çoxusun,
O "sarışıngilə" verin.

Bir ağrı var, keçə bizi,
Çeviriblər heçə bizi.
Yığın, küçə-küçə bizi,
Qürbət eldə gülə verin.

Könlümü oynatma daha…

Daşdan yumşaq deyil, daş deyil ürək,
Külək aparacaq "yun dağı"deyil.
Di bəsdir, könlümü oynatma daha,
Ürəyim bir körpə qundağı deyil.

Yaralı könlümü sarıma ağa,
Qanıma baxmağa gözün gəlməsin.
Tabutum üstünə şal sallamağa,
Ayağın büdrəsin, üzün gəlməsin.

Görüb bu dünyanın son silləsini,
Qayıdıb gedirəm getdiyim yerə.
Gedib bir ömürlük kef çəkim orda,
Gəl apar, daş tulla yatdığım yerə.

Elə vurulasan payızlığına…

Bəxtin də kor ola, umidin də kor,
Ürəyin öyrəşə vəfasızlığa.
Çəkilib bir qərib eldə qalasan,
Ruhun da öyrəşə yuvasızlığa.

Sığalsız saçlara ağrılar düşə,
Bir çayın tərsinə axıntısına.
Elə ürəyin də yollarda qala
Qucağın, bir qadın sıxıntısına.

Belə kül edəsən umidlərini,
Baş qoyub sakitcə yalnızlığına.
Elə yarpaq-yarpaq unudulasan,
Elə vurulasan payızlığına...

Şeir kimisən…

Sən bir şeir kimisən,
Ovqatın qəm nəğməsi.
Sənə sarı üzürəm,
Mənsə bir yük gəmisi.

Sahilim bəlli deyil,
Içində vurnuxuram.
Səndən gələn qasırğa,
Fırtınadan qorxuram.

Boylan bir səsə sarı,
Məni gəz buralarda.
Səndən soraq gəlməsə,
Bataram göy sularda.

Yenə gəldim…

Dənizin dərdi qalmayıb,
Sükutla yatıb uyuyur.
Dəniz adı qalsın deyə,
Kiçik dalğa çəkir suyu.

Yenə gəldim bu yerlərə,
Dənizin sahil dərsinə.
Sahildə balıqqulağı,
Girib qumun sinəsinə.

Bir azca səssizliyi var,
Haylı-küylü bu dənizin.
Günəş asta hərarətlə
Açır, yenə ağ bənizin.

Allah yanında dost yeri,
Boş qalıb böyür, deyəsən.
Dəniz təkliyə qapılıb,
Qapımı döyür deyəsən.

İçimdə ağlayan adam…

Mən bir az içimdə ağlayan adam,
Əlimdə uğursuz gəmi sükanı.
Yollar ayağına bataqlıq geyib,
Durduğum yerlər də deyil məkanım.

Mən bir az ümidsiz, bəxtindən küskün,
Hamının dostu da ola bilmirəm.
Sevdiyim dostuma yerim darısqal,
"Gözümün üstü" də ola bilmirəm.

Mən bir az qəribə, sevgimə duşgün,
Hər gün bir qadınlıq sevgim olmayıb.
İndi uzaqlarda yarı-yarımcan,
Kədərdən inciyən güzgüm olmayıb.

Mən bir az içimdə sızlayan acı,
Hələ xatirəmdə körpə tələşı.
Atamın əynində sevgi qoxuyan,
Müəllim ömrünün köhnə plaşı.

Mən bir az zamanla hamıdan uzaq,
Nə vaxtsa divardan asılmış foto.
Yoluxdum yalnızlıq xəstəliyinə,
Gedim öz dərdimi rahatca udum.

Bağışla

Payızdımı, pəncərədən o yana..?!
Hiss edirsən, əllərinə qış gəlib.
Sən yenə də darıxırsan elə bil,
Yuvasızlıq ağrısına tuş gəlib.

Sən yenə də darıxırsan elə bil,
Yağış yağa, ya da yenə qar yağa.
Yarpaqlar da ayağına toxuna,
Külək tuta saçlarını darağa.

Gecələri yaman sevir ürəyin,
Yuxuların gözlərində qovrulur.
Heç qoymursan günəş yerində qala,
Ulduzlar var, gözlərinə bənd olur.

Sən yenə də darıxırsan elə bil,
Qış gəzirsən saçlarında qar ola.
Hardan bilə bilərdin ki, ay canım,
Həsrət gəlib qucaqlarda daralar..

Sən yenə də darıxırsan elə bil,
Gülə bilmir o kədərli baxışlar.
Sevgilinsə uzaqlarda "zəng" olub,
Bu qisməti taleyinə bağışla...

Bir yuva qurmuşduq…

Budağım ta yanıb sən gedən gündən,
Daha kölgə salmır salxım söyudlər.
Sənin də bəxtinə bir gün doğmadı,
Mənim də bəxtimə qırmanc döyüblər.

Soyuq havalarda isti sevərdik,
Heç vaxt olmamışdı heç gileyin də.
Bir yuva qurmuşduq saman çöpündən,
Bir ev tikməkdəydik quş dimdiyində.

Hərənin bir cürə ağlamağı var,
Ürəkdən ağlamaq, heçə ağlamaq.
Ötən günlərinə tamarzı qalıb,
Gizlicə ağlamaq, gecə ağlamaq.

Qayıdan yolların ayağı sınıq,
Uçan umidlərin enişi xəta.
Səadət evini itirən adam,
Niyə yaşayır ki, daha dünyada?!

Bir qadın tanıdım…

Bir qadın tanıdım, tək qalmış ada,
Bir qadın tanıdım, taledən küskün.
Hər gün qırışlarla yol çəkir adam,
Hər gün dərdlərini danışır güzgü.

Onun gözlərinin alovu itib,
Bir cüt sözə qalıb ümidi yolda.
Gələrmi, gəlməzmi yoldakı adam?
Gözləri yol çəkir hey qaravulda…

Heç sığal görməyən tellərini də,
Küləklər darayır, yağışlar yuyur.
Getdikcə kiçilən gözlərini də,
Gecələr yatanda qapıda qoyur.

Hələ xəyalında mürgüləyir eşq,
Ümid var, dərdini ovutmaz daha.
Onun gəlişinə qurban dediyi,
Nə bilsin, bir daha qayıtmaz daha…

Sənin soyuqluğun…

Çəkirəm dərdini, heç bilən olmur,
Məndən uzaqlaşır sevgi nöqtəsi.
Bu necə agrıdı, içimə düşür,
Sənin soyuqluğun-çölün şaxtası.

Yamyaşıl ağacım yarpaq saxlamır,
Indi quzğunlara yuva kimiyəm.
Məni yadlar sevib, dostlar unudub,
Gözünü kül tutmuş soba kimiyəm.

Daha, nazın da yox, heç çəkiləsi,
Çəkdin ürəyimin şirəsini də.
Sənin ürəyində yatan günlərin,
Verib bitirəcəm kirəsini də…

Çiçəkləyən əllərim…

Hamı gedər, bu şəhərdən inciyib,
Düşünərsən göydən yerə daş gələr.
Öyrəşəndə doğmaların dəfninə,
Gözlərindən ağır-ağır yaş gələr.

Yatağında bir məzarlıq havası,
Ürəyində nəm qoxuyan bir qəbir.
Dostun vardı, ürəyinin həyanı,
Zaman keçdi, itirirsən birbəbir.

Niyə məndən incimisən, İlahi!
İndi məni girov tutur gunlərim.
Gör nə vaxtdır çarpazlanıb sinəmdə,
Hər bayramda çiçəkləyən əllərim.

Qız, baxtına çıxdım yola

Qız, baxtına çıxdım yola,
Yolu itirə-itirə.
Vallah, sənə dərd olaram,
Baxtım gətirə-gətirə.

Gəl, mən günü qara üçün,
Sarğı axtar yara üçün.
O ürəkdən hara köçüm?!
Sevgi ötürə-ötürə.

Məhəbbətin taxtındayam,
Ömrün gözəl vaxtındayam.
Sənin sevgi baxtındayam,
Tanrı yetirə-yetirə...

Biskay körfəzi...

Heç gecikmə, bu da keçər, demirəm...
Darıxmıram...
Bu ömürdü qadası....
Bu gecə də yağışını yağdırıb,
Qəm sulayır Pireney yarmadası..

Karıxmıram, unuduram hər nəyi,
Heç bozarmır, üzə vurmur yaddaşım.
Bir gün köhnə qəbirlərin içində,
Nə qalacaq?... Hədiyyəlik başdaşım...

Ömür bumu?
heç sevmirsən?
nə yaxşı..,
Ayrılıq var, yarasında gizlənib.
Mən bilirdim, ağ günümün işığı,
Gözlərinin qarasında gizlənib.

Ürəyini nifrət didib nə vaxtdı,
Yoxa çıxıb şirinliyin əvəzi.
Göylər yenə navalçada ağlayır,
Qəhərlənib yenə Biskay körfəzi...

.

Səndən sonra..

Səndən sonra, qəriblikdə ömür lal,
Yaralarım qubar dolu "bağlama"
Yastığının nəmində bogulma ta,
Sən də mənə qucaq dolu ağlama.

Taleyimin nimdaş üzü xoş deyil,
Sevmək üçün ürəyim var, boş deyil.
Bilirəm ki, ürəyin də daş deyil,
Çəkmə mənim ürəyimə "dağlama".

Ömrüm keçdi, gör neçənci yaz oldu,
Məktubların ürəyimə yazıldı.
Düşünmə ki, taleyimiz pis oldu,
Bu Tanrıdan növbəti bir yoxlama.

İşim olmaz nə silahla, nə güllə,
Öz hədəfim, özümə dəyən güllə.
Sən də mənim az bəxtimi düyünlə,
Sakit-sakit ürəyimi oxlama.

Bir su içim eşqdə qalıb şərbətim,
Hələ doğru olmayıbdır niyyətim.
Ürəyində baş tutmasa qarətim,
Ayrılığı qapımıza yollama...

Çemodanlar ömrümüzə yük..

Sıxılıb, bir küncə yazıq düşmüşük,
Boğub öldürəndə qəhərlər bizi.
İri çemodanlar ömrümüzə yük,
Qoparıb aparır şəhərlər bizi.

Qoparıb aparır şəhərlər bizi,
Necə qatar-qatar ötür adamlar.
Neçə qadın əli, sığalsız qalır,
Böyük şəhərlərdə itir adamlar...

Çoxu qucaq-qucaq sıxılır belə,
Yağan yağışlarda çətrini bükür.
Adam var, sözü də özünə yükdü,
Ağlaya-ağlaya gözündən tökür.

Məni elə qısqandır

Məni elə qısqandır
Daha sözüm olmasın.
Dənizə gizlicə get,
Səndə gözü olmasın.

Bədənində dənizin,
Duzlu suları gəzsin.
Qumlu sahildə uzan,
Çarpayı səni əzsin.

Məni elə qısqandır,
Yansın sevgi toxumu.
Sənin yalın ayağın,
Sahilin isti qumu...

Qəfildən dəli külək,
Öpsün dodaqlarından.
Mən səndən küsüb getdim,
Bezdim ayrılığından...

Bir gün..

Bir gün sıxıldığım ürək,
Künclərdə boğacaq məni.
Qapımı örtüb ağlayan,
Sevgim unudacaq məni.

Şeirlər küsər varaqdan,
Tüstülər çıxar ayaqdan.
Qürurum çıxmaz otaqdan,
Tərsliklər tutacaq məni.

Həmdəmim uzun gecələr,
Qara sap kimi incələr.
Bu meydim çıxan küçələr,
Qarşıma çıxacaq mənim.

Unutdum uzaq, yaxını,
Sevdim qapıdan çıxanı.
Nəbzimdə sürət axını,
Beynimdə duracaq mənim.

Üstümdən götür ürəyi,
Unudulan nə var, nəyi...
Boz ayın isti küləyi
Alnımdan yıxacaq məni..

Saatım tərsə iş tutar,
Ölüm mənlə görüş tutar.
Dərdim suda yeriş tutar,
Gəmim də batacaq mənim.

Günümü bərk sıxmışam...

Başımı söykəmişəm, uşaqlıq havasına,
Quyuların sərini axıb yenə sinəmə.
Vulkanlar qabarıbdı ürəyimin içində,
Yenə uşaqlıq arzum qayıdıb dünənimə..

Bu yalın ayağımı, isitmir isti ocaq,
Yeni ümid doğulmur, yollarımın sağına.
Yenə həvəs də yoxdu, çıxım evdən-eşikdən,
Günümü bərk sıxmışam ayaqqabı bağına...

Göyün dolu tavanın ta yerə dağıtmışam,
Hönkürüb qara bulud, gecə də ayazlaşıb…
Ömrün gözəl yolların səhərədək dartmışam,
Güllərin ağ rəngi də saçımda bəyazlaşıb...

Bir badəyə süzmüşəm, gecənin qaranlığın,
Məhəbbəti ömürlük bir yatağa yıxmağa.
İpini də kəsmişəm "barmağa dolamağın",
Daha səbrim yerimir keçmişə boylanmağa...

Bu mənəm…

Bu mənəm, ağrılı günlərə sürgün,
Hər gün min qəzanın içində ölən.
Ucalıb zirvədən yıxılmağım var,
Açıb qollarını mənə göydələn.

Bu gün də beləcə günaha batdım,
Yaxamdan düşmədi ağrı, sübhədək.
Bilmirəm boş qalmış yalqız ömürlə,
Gizli ağrımızı harda gizlədək..!?

Parça-parça oldu verilən ümid,
Tikəsi yaramın duzuna döndü.
Qapılar taybatay açıldı sanki,
Dunya bir səhranın tozuna döndü.

Çıxıb getmək olmur ayaqlarınla,
Kimsənın çiynində yük olur adam.
Indi bir qələmlə, bir ağ varaqla,
Gedib uzaqlara çəkilir adam.

Bu mənəm, ağrılı günlərə sürgün,
Hər gün min qəzanın içində ölən.
Ucalıb zirvədən yıxılmağım var,
Açıb qollarını mənə göydələn.

Əllərin….

Əllərin uzaq, əllərin
Yetməz... uzağam, uzağam.
Üzümdə payız küləyi,
Eldən sazağam, sazağam.

Kipriyim dən-dən ağlayır,
Yalnızlıq qəmdən ağlayır.
Şeir var, hərdən ağlayır,
Vərəqdə qalaq-qalağam.

Ayrılığın ən betəri
Qürbətdəki qəmin ətri.
Sənə sıxılmaqdan ötrü
Qolları qucaq-qucağam…

Üşüyür

Bir ağrılı gündən sonra
Gecə var, yaman üşüyür.
Varlığımı çən aparıb,
Çöllərdə duman üşüyür..

Bitdi ömür axtarışla,
Ovunmadım min alqışla.
Mənə dəyən bir qarğışla,
Fikrimdə güman üşüyür.

Ümidlər var, darda qalır,
Kölgəsin yoluma salır.
Kilsə əcəl zəngi çalır,
Qolumda zaman üşüyür.

Yaza-yaza qalmışam...

Payız vaxtı yağmağımı görmədin,
Buludlarda aza-aza qalmışam.
Yenə mənəm, -bu əlləri qırılmış,
Sənə məktub yaza-yaza qalmışam.

Ötən ilin xatirəsi min tikə,
Dizin-dizin süründürür otaqda.
Gecə düşür, qısılıram səbrimə,
Qələmimsə diyirlənir varaqda.

Ömür hər gün bir ağrılı daş olur,
Hey yığılır getdiyim o yollara.
Bu bəxt ki var, ayılmayan bir yuxu,
Oyatmadın, qəbirlərə yollanar...

Səni mənə gətirmədi…

Dodağına gülüş qonar güzgüdə,
Saçlarında sığal çəkər darağın.
Çiçək açar şeir yazan əllərim,
Üzü gülər, üzü gülər varağın.

Sarı payız bitdi yenə amansız,
Yenə soldu, çör-çöp qaldı budaqlar.
Səni varaq-varaq öpub qoxladım,
İsinmədi, isinmədi dodaqlar…

Heç bilmirəm nələr sıxır qəlbimi,
Tənhalığım sükut edir yağışda.
Səni mənə gətirmədi illərim,
Gətirmədi, gətirmədi, bağışla…

Baxma bu payızın sözünə…

Bu küçəmiz yenə köhnə havada,
Bu yolların toz giribdi gözünə.
Bu payızın ümidləri saç yolur,
Sən heç baxma bu payızın sözünə.

Sən heç baxma bu payızın sözünə,
Məktublarım çiçək açar, yaz olar.
Kilidlənmiş həsrətinin ucunda,
Gecələri ağlamayan qız olar.

Sən heç baxma, ömrün soyuq qışı var,
Qar da yağsa külәkləri narazı.
İndi mənim dodağımın istisi,
Öpülməyən tellərinə tamarzı.

Bu küçəmiz, yenə köhnə havada,
Payızlığı necə dəyir üzümə.
Yollarında bir ümid var, mən adlı,
Gecikməmiş qayıdaram özümə.

Barmaqlarım sözə baxmaz…

Bəd yuxudan oyanaram,
Üz-gözüm cırmaqlanar.
Barmaqlarım sözə baxmaz,
Saçımda daraqlanar.

Yuxum utanar üzümdən,
Ayağıma daş düşər.
Uzaqlardan bir quru səs,
Yanağıma yaş düşər.

Bir az keflənmiş ümidlər,
Doğular, həvəs ilə.
Həvəsim ölər qapıda,
Kimsə çıxmaz səsinə.

Nağıl kimi sevməyi var..

Pəncərəmdən boylanıram payıza,
Xatirimdə dumanlanır bir foto...
Bir qız keçir qarış-qarış içimdən,
Xatirəmi şəkillərdə unudur.

Canım, payız havası da üşüməz,
Əllərim heç yanağına toxunmaz.
Son baharda yazdığım o şeirlər,
Oxuyanda dodağına toxunmaz.

Hələ köhnə məktublardan od alar,
Gözlərindən yağış yağar yoluma.
Nağıl kimi sevməyi var, elə bil
Əllərinə göydən düşər üç alma..

Gülən gözü yanağında duyular,
Saçlarında ətirlənər qoxusu.
Birdəfəlik unuduram özümü,
Qarışanda sevgilimin yuxusu.

Şeir kimi bir qadını görəndə,
Unudursan yaddaşının çoxunu.
Pəncərədən boylanıram yağışa,
Yağan yağış ürəyimə toxunur...

Kimsəsizlik havası

Əllərin-ümid qapısı,
Qolların – yaşam yerim.
Barmaqlarında od tutar,
Qəlbin alışan yeri…

Yollarında çinar kimi,
Sallanar ayaqlarım.
Kimsəsizlik havasından,
Çıxmaz ki, otaqlarım.

Heyif, çoxdan öldürmüşəm,
Çox ümiddə həvəsi.
Bu təkliyi çəkənim yox,
Düz işləmir tərəzim...

Qol-boyun olmuşam…

Qol-boyun olmuşam dərdlə
Yeriyirəm, bir az çətin.
Mən bir qara rəngli bulud,
Misralarda qara sətir.

Min qarğışın üzərimdə,
Üzümdə min rəng çaları.
Yenə sənə şeir yazıb,
Dilimlədim hecaları.

Nə biləydim mən ağlıçaş,
Həsrət yuva salıb bizdə.
Qaragünlü ağ dəftərim,
Yaddan çıxıb qalıb sizdə.

İşığı yandır

Bir yoxuşda qaldım, enişə çıxan
Bir təpə istədim qaya dibində.
Bir əl fanarıyla yolda azmışam,
Qəlbinin qaranlıq küçələrində.

Bir ümid də yoxdu yolun sonuna,
Ha cağır, harayın özunə çatmır.
Bu qərib küçələr, köhnə divarlar
Nədənsə heç mənim qəlbimə yatmır.

Sənin qəlb evinin hasarı hündür,
Bir ocaq qaladım, külümü qaldı..?
Deyəsən catmışam yolun sonuna,
Sən Allah, dur indi işığı yandır!

Ta ölüm qorxudar kimi

Ümidin yolu dolaşıq,
Qarışıq yuxular kimi.
Səni heç vaxt unutmadım,
Sevdiyim qoxular kimi.

De sevinim nəyə, nəyə?
Ta and içmə yerə, göyə..
Sevgi vermədin ürəyə,
Aldatdın ağrılar kimi.

Dön, həsrətin üzünə bax,
Qırışmışam varaq-varaq.
Qara dünyam, gündüzü ağ,
Ta ölüm qorxudar kimi?!

Ömrümün sənli gùnləri...

Qaçıb dodağımın gülüş havası,
Elə bil fəslimin üçü saralıb.
Sən buna darıxmaq deyirsən amma,
Mənim gözlərimin kökü saralıb.

Bu payız qapımı döyüb qəfildən,
Son yarpaq canını sərib torpağa.
Sizin ellər yaman soyuq geyinir,
Ürəyim üşüyür bu ayrılığa.

Narahat duyğular saya gəlməyir,
Hər sabah yolunu qəmindən keçir.
Ağrılı ömrümün hamısı indi
Sənin göz yaşının nəmindən keçir.

Bir vüsal həvəsi qayıda, gələ,
Qopara köksümdən qəmli günləri.
Mən heç qaşqabaqlı ömür sürmədim,
Dörd fəsil ömrümün sənli gùnləri..

Elə bilmə ölmüşəm…

Bəd gümanla gecələr,
Gecikir sabahlara,
Duyğular divarlara
Qorxunc rəsmlər çəkir.
Sənin nazik barmağın
Pianonun bəd notu,
Hamı məndən küsdüsə
Ümid də yalqızlaşır.
Belə qayıtmaq olmur,
Elə bilmə ölmüşəm.

Yorğun olur, gecələr
Bir az həsrətdə qalmaq.
Tavanda gəzir rəsmin,
Gözlərimdən ucaraq.
Sən bir az ürəyində
Mənə də umid saxla.
Mən bir az sırtıq uşaq
Sətəlcəmdən dönərəm.
Belə qayıtmaq olmur,
Elə bilmə ölmüşəm...

Qışda soyuğum oldu,
Büründüm yaz vaxtına.
Əllərim ciblərimdə
Canımdan isti çəkmir.
İndi heç uzaqlarda,
Çəkmək olmur nazını.
Yerdən göyə həsrətim
Yaxındı bəlkə səndən

Belə qayıtmaq olmur,
Elə bilmə ölmüşəm...

Bir sovqatlıq sevgidi,
Vermək olmur hər kəsə.
Əyninə geyinirsən,
Yetim uşaq paltarı...
Dodağın hava çəkmir,
Nəfəsin buza dönür.
Belə canın da çıxmır
Tənhalıq ölmək deyil,
Belə qayıtmaq olmur,
Elə bilmə ölmüşəm...

Ölmürəm

Bu nə sirdi, dərd tavanım uçmayır,
Hər gün dərdi çoxaldıram, ölmürəm.
Sənin mənim ürəyimdə yüz yaran,
Sağaldıram, sağaldıram, ölmürəm.

Göz yaşımda gül əkmişəm, gül dərim,
Yığıb sənə bir dəstə gül göndərim.
Sifətimi ağ kağıza döndərib,
Ağardıram, ağardıram, ölmürəm.

Bu ömrüm də bəd niyyətli sarmaşıq,
Daha demə yarı yolda qalmışıq.
Saçlarının qarasına dolaşıb,
Günlərimi qaraldıram, ölmürəm.

Bir payız sevgisi gələ…

İlahi, verdiyin dərdinə qurban,
Sevən heç olmasın mən tək yazığı!
Duyğular o qızın şəklini çəkir,
Yaddaşım büsbütün qaya cızığı.

O, hələ gözümün yuxu davası,
Yarımçıq şeirim, duyğusal gecəm.
Qolboyun olduğum kağız, qələmlə,
İstərəm hər gecə yuxuna köçəm.

Hər gün vergülündə duruxan ömrün,
Çəkdim ciyərimə ağrılarını.
Bir payız sevgisi gələ ömrümə,
Sarıya qəlbimin yaralarını.

Nəyimə lazımdır

Elə bil üstümə uçulmuş divar,
Məni dəfn edəcək söz qəfəsimdə.
Bir dəli küləyin hiyləsinə bənd,
Laxlanmış pəncərəm son nəfəsində.

Bax, yazı masamın üstündə vərəq,
Çaxan şimşəklərin oduyla yanır.
Mənim ürəyimin odunu alan
O ağ vərəqlərdə, qadın dayanır.

İlahi, əlinin suyunu çilə,
Bu kiçik otağa payızı gətir.
Qara bəxtim kimi künclərdə yatan,
Nəyimə lazımdı bu qara çətir..?

Salam…

Salam! Üzünə güldüyüm!
Vətən, səndə nəyim qaldı?
Ağrısına büküldüyüm,
Əynimdə göynəyim qaldı.

Baş qatdığın uşaq mənəm,
Yolun sağı qəza yerim.
Bir cığallıq oyununla,
Uzaq düşdü cəza yerim.

Hələ boylanıram sənə,
Dar gün gəlsə, məni cağır.
Sirsifətin bir eşq yeri,
Vurulmaqdan canım çıxıb...

Əldə du-bir gəzirəm

Mən fələklə oynamağa,
Əldə du-bir gəzirəm.
Şeşqoşalıq günüm olsa,
Fələk mənlə oynamaz.

Hər gün yeni, tozanaqlı
Sabahlar nədən küsüb.
Bir şıdırğı yağış yağsa,
Duman çənlə oynamaz.

Uşaqlığım vərəqlərdə,
Doğan günəş şəklidi.
Ay olmasa, gecələrin
Zülmü qəmlə oynamaz.

Bu yol sənsizlik yolusa,
Ta mən hara boylanım..?
Ürəyim eşq havasında
Hər gözəllə oynamaz.

Süzülən göz yaşlarımdan,
Şərab çəkdim bu eşqə.
Sərxoş oldum, ürəyim heç
Vəsvəsəylə oynamaz.

Ömrümüzə günəş doğdu,
Üzünə ay tutdular.
Qol-qanadı sınıq ürək,
Heç həvəslə oynamaz.

Ütüsüzdü köynəyim…

Mənim səndən gizlətməyə nəyim var,
Heç nəyim yox, heç nəyim yox, heç nəyim.
İndi yoxam, asılqandan asılmır,
Ütüsüzdü, ütüsüzdü köynəyim.

Sən də məni unutmağa vaxt elə,
Üyüt məni dəyirmanın gözündən.
Bu həsrətin tayasına yaba sanc,
Uzaq elə, uzaq elə özündən.

Dənizin sərt dalğasına tuş gətir,
Ver küləyin qoltuğuna, yada ver.
Doğmalığın soyuyubsa, gözləmə
Apar məni, apar məni, bada ver.

Yaman soyuqlaşıb…

Yaman soyuqlaşıb bizdə havalar,
Hamı istəyir ki, isti geyinə.
Əllərim buz geyir sən olmayanda,
Öyrəşib əlinin istiliyinə.

Nəğməli ömrümə darıxmaq gəlib,
Yuxulu gözlərim dağ çuxurudu.
Arzular umiddən asılı qalıb,
Əlim də yetməyir, çox yuxarıdı.

Tavanım göylərə duvaq kimidi,
Düşüb qarğısına yenə fələyin.
Allah da gizləyib yağışlarını,
Yenə arxasında isti küləyin.

Mənim ağlamağım yagışdan betər,
Şəhər yollarında boğular adam.
Axı yatağında körpə uşaq tək,
Nə qədər büzüşüb yığılar adam.

Yaman soyuqlaşıb bizdə havalar,
Hamı istəyir ki, isti geyinə.
Əllərim buz geyir sən olmayanda,
Öyrəşib əlinin istiliyinə.

Sevmək-sevilmək

Mən də səni arzuladım, gördüm gecə yarıdı,
Bir əl boyda ümid olsa yolum sənə sarıdı.
Ömür məndən getmək deyil,
geri dönmək agrıdır,
Sevmək gözəl arzularla,
Sevilmək daha gözəl.

Gözlərimin yuxusuna haram olub gecələr,
Səni kimdən soruşum ki,
danışdıqca dincələm.
Mənə dəniz sevgisi ver,
bir də sənli küçələr,
Sevmək gözəl arzularla,
Sevilmək daha gözəl.

İndi ömrüm bəd notlarda,
dörd yanımda qəm, kədər,
Bir səbrli gecə kimi gözləyirəm birtəhər.
Bir gün geri qayıtmasan
tək bunu bilsən yetər,
Sevmək gözəl arzularla,
Sevilmək daha gözəl...

Görən varmı ümid yeri, geri dönüş etməyə?!
Qapı kandarında qalmış arzulara yetməyə.
Ayağımı torpaq tutmaz səndən
çıxıb getməyə,
Sevmək gözəl arzularla,
Sevilmək daha gözəl.

İlahi, bir yol eylə

Mən bu boyda kədərlə
Ölərəm, qəbrim tutmaz.
Elə baxma üzümə
Gedərəm, səbrim tutmaz.

Bir zibillik ömürdü,
Dərdlə bitməz davası.
Ağır olur, udduğum
Gecələrin havası.

Sağım-solum daş, qaya,
Göyun üzü hamarsa..,
İlahi, bir yol eylə,
Əzabımı qurtar, sən!

Ortada ayrılıq var…

Yanaqların buz kimi,
Gözlərin – çuxur dibi.
Ortada ayrılıq var,
Aldadır yuxu kimi…

Sənə boylanır ürək,
Dartınır tarım-tarım.
Həsrətin otaq boyu,
Gəzişir divarları.

Yuxum pəncərələrdən,
Boylanar, səni gəzər.
Sənə qovusmaq ayrı,
Həsrətin ayrı gözəl.

O qız çaşbaş düşüb…

O qız çaşbaş düşüb ömür yolunda,
Çiyninə arxalı tərəf götürmür.
Hərdən kif bağlamış nəm kağız kimi,
“Sevirəm” sözündən bir hərf götürmür.

Elə aldadıcı qurur sözünü,
Guya ki, heç kəsə qıymır özünü.
Yollar ayrıcında yorur gözünü,
Getməyə bir yolluq tərəf götürmür.

Ağlayır bu yerin göy tavanı da,
Götürüb üstünə çən, havanı da.
Onun oynadığı hər havanı da,
Əlimdə tutduğum bu dəf götürmür.

Bu ömür təzə-tər həvəs altında,
Hər yanı bağlıdı, qəfəs altında.
Mən də tıxanmışam nəfəs altında,
Barmaq bir tətiklik hədəf götürmür.

Məhəbbətin qapısı bağlı oldu

Elə bil ki, məhəbbətin qapısı bağlı oldu,
Pəncərəmə gün doğmadı,
gün doğmadı bir səhər.
Bəlkə sən də qayıtsaydın, qayıtsaydın bircə yol,
Günəş bəlkə toxunardı, pəncərəmə birtəhər.

Payızda da yaz havası dolardı evimizə,
Onda qürbət havası da dəyişərdi bəlkə də.
Bəlkə məni, bircə dəfə ürəyinin başında
Saxlasaydın, saxlasaydın, öyrəşərdi, bəlkə də.

Bu darıxmaq həvəsimi niyə sevdim, İlahi?!
Elə bil ki, ürəyimi əridirəm istidə.
Məni daha isitməz ki, isitməz ki, ocaqlar
Canı çıxar sobaların, canı çıxar tüstüdə.

Ömür səkilərdən sürüşkən olub..

Yenə budaqlarda yarpaq acısı,
Yenə qarla açdıq səhərimizi.
Ömür səkilərdən sürüşkən olub,
İntihar bürüyüb şəhərimizi.

Bir də, üşüməkdən əlləri donan,
Ağaclar itirib yarpaqlarını.
Ölüm də aparır idrakdan zəki,
Şəhərin ən gözəl axmaqlarını.

Bir ağlıçaş qız bəxtinə

Bir də belə, sabah açar,
Ağrı dağım gəlməyəcək.
Yüz yerə çırpıb özünü
Darıxmağım, gəlməyəcək.

Küsərəm sevginə inad,
Toxunmaram gül əllərə.
Baxıb gülmək öyrənərəm,
Mənlə deyib gülənlərə.

Bir də küsər ümidlərim,
Küsər, küsər öz baxtına.
Mən ömrü belə yaşadım,
Bir ağlıçaş qız baxtına.

Sındırıram aynalardan qəlbimi

Utanaram yalanı ağ sevgidən,
Aldadıram ömür adlı zamanı.
Yollar bitir bir sonuncu ümid tək,
Darıxdırır ürəyimin gümanı.

Günlər məni vağzallara daşıyar,
Donub gedir damarımın qanı da.
Sındırıram aynalardan qəlbimi,
Küsdürürəm ürəyimi hamıdan. ..

Səndən sonra…

Bir ayrılıq, bu ömürə tuş gəlib,
Tərsə taxıb kainatı gözümə.
Bu dünyanın bir küncündə gizlənib,
Səndən sonra oxşamadım özümə.

Səndən sonra oxşamadım özümə,
Heç bilmədim payızı nə, yazı nə?!
Boğazımın qəhərini içirəm,
Gecələrim batmır şəkər tozuna.

Səndən sonra, yağışlar da başladı,
Bir çətirdə payız adlı ömürdük.
Ağacdakı son yarpağın xətrinə,
Qayıdasan, getməyəsən ömürlük...

Bizim elin əsmər qızı…

Vahimədir tərk edilmiş bir ömür,
Çox gecikmir, budaq-budaq quruyur.
Bizim elin əsmər qızı hələ də,
Qarşı dağda namusunu qoruyur.

Ümidi var əsmər qızın, ölməyən
Mübarizlər yurdumuza dönəndən.
Papağını oda atmır general,
Min nacinsin ehtirası sönəndə...

Hələ vətən həsrətində bir ana,
Ölməyibdir ümidinin çoxusu.
Alnındakı qırışlardan yol çəkir,
Tərk etməyir vətənsizlik qorxusu.

Mənsə yana-yana ocaq qaladım,
Ürəyimin o ağrılı yerindən.
Bu uzaqlıq yaxınlığın ta özü,
Qanadırıq yaraları dərindən.

Məni yenə uğursuz sev…

Məni yenə uğursuz sev,
Yenə yollarda itir
Heç olmasa 3-5 il..,
qollarımda yuxu gör.
Sonra yenə qayıdaram,
Yenə köhnə yerimə….
Yenə bağlı qapı görüb,
qayıdaram evimə.
Məni yenə uğursuz sev,
Azdır ömür yolunda.
Heç olmasa 3-5 il,
gəzim axtarım səni..

Yenə təzədən küs məndən,
Qaytar gəldiyim yollara,
saatı olmayan evə.
Yenə zaman axıb getsin,
darıxmaqla bitməsin.
Məni yenə uğursuz sev,
yolda gözləyim səni…

Heç olmasa 3-5 il,
Sevməyi öyrət mənə.
Yagışda islanmağı,
Yenə tində qalmağı
Birtəhər öyrət mənə.
Məni yenə uğursuz sev,
Saçlarına toxunum.
Heç olmasa 3-5 il,

Heç olmasa bir gecə…
Mənə daha nə lazım..?
Darıxmağa soyuq ev,
Bir də sərin düşüncə.
Məni yenə uğursuz sev,
Qaranlıq gecə kimi…

Heç olmasa 3-5 il,
Sübhü mənlə qarşıla...
Bacarırsan...
Məni elə beləcə sev,
Ara vermə sevgiyə.
Yenə başdan başlayaq,
Yenə sevək 3-5 il
Yenə sevək 3-5 il…

Qayıt…

Hansı ümid çələngini
Qəlbimə hörüm ?!..Qayıt..
Atmayım ağrı həblərin,
Çəkməyim zülüm, qayıt.

Bu daş düşən yuxuları,
Çəkdiyin qayğıları.
Bu sağalmaz ağrıları,
Yox edim-bölüm, qayıt.

Qaytar ömrün sevincini,
Səsimin ahəngini.
Qaytar güllərin rəngini,
Solmayan gülüm qayıt.

Qoymaram, uduzaq belə,
Üşütsə sazaq belə.
Getmə uzaq, uzaq belə
Qayıt, mən ölüm, qayıt…

Sonuncu ümidim

Eh, səni də unuduram deyəsən..,
Unutqandı, bu didərgin yaddaşım.
Bir şam kimi əritdiyim bu ürək,
Bir gecəyə nədən belə yadlaşıb..?!

Vücuduma, bir şaxtalı qış geyib,
Sırsıra tək, budaq-budaq donmuşam.
Əllərimə günəş qədər toxunma,
Sənlik deyil, bu ömürdən doymuşam.

Yaz, qaranlıq dəftərinə payızı,
Həsrətimi bir ömürlük karıxdır.
Daha mənim o sonuncu ümidim,
Boylandığın pəncərədə darıxmır...

Əllərim Tanrının eşq süfrəsində

Əllərim Tanrının eşq süfrəsində,
Diləndim bir eşqin sədəqəsinə.
Indi hər ağrımın şəklini çəkib,
Gedib tullamıram poçt qutusuna.

Bu ömrün bəs niyə iki üźü var..?
Bəxtimmi bir nimdaş üzünə düşdü…
Bir kölgə izləyir gedən yolumu,
Bir qərib yolçunun izinə düşdü.

Gecələr pəncərəm önündə kölgə,
Duyarsan, masana hər gün iz düşər.
Qoy sənin kölgənə sığınım, Allah,
Kölgələr ömrümə yaman pis düşər.

Qələm də söz boyu şütüyür…

Qələm də söz boyu şütüyür yenə,
Yenə dərd əlindən varaqlanırıq.
Dərdin qapazları başa dəyəndə,
Kobud barmaqlarla daraqlanırıq.

Hədəfə tuturuq dərdin əlindən,
Yenə alnımızın güllə yerini.
Sən hələ duymazsan "zalım balası",
O sərt baxışlarin sillə yerini.

Gərək saxlayaydım göz yaşlarımı,
Görəndə ağlayır çiçəklər mənə.
Tanrıdan xəbərsiz alın yazımı,
Yazıb göndəriblər mələklər mənə.

Söydürmə mənə

Nə kəfən tikənsən, nə boy biçənsən,
Çix get, bu istəyi bildirmə mənə.
Salıb tərsliyinə alın yazımı,
Tanrının əliylə sildirmə mənə.

Yalandan ağlama, mən də "döz" deyim,
Yanmayan könlünə "yanar köz" deyim.
İstəmə qayıdıb dəli söz deyim,
Sən gəl, qapınızı döydürmə mənə.

Hələ ki, tapılmır dərdin dəvası,
Hələ sən tərəfdən gəlmir havası.
Səndən sevən çıxmaz "şeytan balası",
Yazığam, hamını güldürmə mənə.

Ölum qapısını düymə tək açdım,
Əzrayıl görəndə geniş qol açdım.
Mən öz kəfənimlə yerdə dolaşdım,
Yeri, bu dünyanı söydürmə mənə.

Eşq Allahdan pay deyil

Nə günəş o günəş deyil,
Nə də ki, ay, ay deyil.
Daha mənim ürəyimdə,
Eşq Allahdan pay deyil.

Indi yolum da uzaqdı,
Çıxıb getməyə yer yox.
Daha ağ günə çıxmağa,
Bir ümid var, səbr yox.

Qibləmin ha yanındasan?
Gözdən uzaqdı kölgən.
Səni məndən belə aldı,
O yetim qalan ölkən.

Mən də belə çıxdım yola,
Çıxdım ki, sənə deyəm..
Daha səbrim də dayazdı
Hey dartır ləpədöyən...

Tikərəm kölgəmi ayaqlarıma

Sözumlə tükənə bilmirəm axı,
Sözumlə doğulub ölə bilsəm də.
Özum yad baxışlı günahlarımı,
Yuyub atacağam çölə, bilsəm də.

Yaşayıb bu sayaq, ölüb bu sayaq,
Gömərəm qəlbimə körpə hissləri.
Məni günahımla tabuta qoysan,
Torpağın bətnində ölər hisslərim.

Tikərəm kölgəmi ayaqlarıma,
Yeriyim, yox olum, itim özumdə.
Bu dünya qəribə dünyadır, amma
Göyün kölgəsi var yerin üzündə.

Daşıyıb kölgəsiz bütün ahları,
Kölgəyəm, əksimdi düşüb torpağa.
Kölgələr daşıyır pak günahları,
Qorxuram kölgəsiz, tənha qalmağa.

Nənəmə yazdığım şeir...

(Uzun ömur yaşayanda həyatdan bezirmiş insan...)

Ölümdü yolunu salıb,
Hamı nənə, səsdən düşür.
Mələklər çaldığı hava,
Yüzdən birə qəsdən düşür.

Baxma, əli boş köcürsən,
Torpaq üstə daş köcürsən.
Sən dünyadan xoş köçürsən,
Ayağın qəfəsdən düşür.

Dəymirəm, yara vaxtındı
Saçını dara, vaxtındı.
Bu sənin qara baxtındır,
Əzrayıl həvəsdən düşür.

Budağın barı göynəyir,
Yarpağı sarı, göynəyir.
Burda bir qarı göynəyir,
Ürəyi nəfəsdən düşür.

Gəlir

Bu ömür də zəli kimi,
Yığır dərdi dəli kimi.
Yaşamağı ölu kimi,
Ölməyin ölüsü gəlir.

Sinəsi dağ çuxurudu,
Di gəl, ölümü qorxudur.
Bu dünyanı dərddən udur,
Ölümçün təşnəsi gəlir.

Ölünün nədir kələyi,
Əzrayıl qolun əyləyir.
Bu ölüyə sığal dəyib,
Yaşamaq həvəsi gəlir.

Dərdin aşından…

Kim düşər bu dərin quyuya axı,
Hamı öz yolunu dayazdan keçir.
Çəkdim öz başıma dərdin aşından,
Gördüm yavaş-yavaş boğazdan keçir.

Ölüm məşuqə tək güldü üzümə,
Amma sığalından ürək açmadım.
Gördüm, gözlərimdən ağladı dünya,
Di gəl, yanağımdan heç nə qaçmadı.

Mən necə yandırım nəmli kibriti?
Bu şam da odlanıb, şamdana girmir.
Görüşdən üstümə qayıdan çiçək,
Solur əllərimdə, güldana girmir.

Mənə əyri baxanım…

Yarıb keçdi bu günkü qar,
Qaranlığı güllə kimi.
Ay mənə əyri baxanım,
Dəymə mənə sillə kimi.

Əlləri üşüyən uşaq
Soyuqluğu var evimdə.
Nəhəng binanın üstündən,
Yağır bu gün qar evimdə.

Soyuqdan üşütdün məni,
Mənə bir barmaq əl uzat.
Məni boş yerə uduzma,
Bu yolu qırma, gəl, uzat.

Bulud, mənlə oynama

Bulud, mənlə oynama,
Yağışına dur yiyə!
Hamı günahdan qaçır,
Ramazan gəlir deyə.

Bulud, mənlə oynama,
Yağdığını yağmısan.
Bəsdir ta, ömrümüzə,
Qaşqabaqla baxmısan.

Yagdığın yağışlardan
Şəhər yolları üzgün.
...Bircə ləçək qoymadın
Arılar səndən küskün.

Bulud, mənlə oynama,
Daha get evinizə.
Dəniz də səndən küsüb,
Baxmaq olmur dənizə.

Bir dəli ağlamaq gələ…

Qoyublar bir çölün düzündə məni,
Dərddən nə çatar ki, qulağı kara.
Üstümə sovurub dəli küləklər,
Ömrümü çevirib yağışlı qara.

Yenə də başlayıb külək, sulu qar,
Ha yana gedirəm, çırpır üzümə.
Bir qismət ömür var, o da ki, bitmir,
Bitmir ki, dincəlib gələm özümə.

Silahsız-süngüsüz ada kimiyəm,
Dalğalar suyunu çəkir sahilə.
Qorxuram bir dəli ağlamaq gələ,
Dalğası adanı tökə sahilə.

Ad günüm…

Gör, nə vaxtdır yol gedirəm,
Ömrün qara yolunda.
Zaman mənlə baş aldadır,
Saatı yox qolunda.

Bir iblisin həmləsinə,
Tuş gəlibdi ağ günüm.
Mənsə sevgi həsrətində,
Qırxı vurur ad günüm.

Bir bədheybət izimdədi,
Güdür qapı dalında.
Mən şahla mata gedirəm,
Bu oyunun sonunda.

Çırpdı sahilə

Dünən meyidləndi sular dənizdə,
Indi sərt dalğalar bükülüb qalıb.
Yosunlar çiçəyə bənzər dənizdə,
Indi sahil boyu tökülüb qalıb.

Bax, dəniz özündə donub elə bil,
Kim gəlib sahildən ağı götürüb.
Kimsə dalğaları yonub elə bil,
Üstündən min illik dağı götürüb.

Kiçik dalğalar da qərarsız olub,
Onlar da sahilə düşür qəm ilə.
Mən də ürək açdım, qəmə qoşuldum,
Dalğalar meydimi çırpdı sahilə.

Gedirəm

Uzandıqca, ayaq izin
Sahil boyu mənə həsrət.
Gəl, qucaqla bu dənizi,
Əvəz edər məni əlbət.

Bu qaçaqaç nəydi, bilməm
Görən yermi qaçır göyə?!..
Sənə nişan da taxdılar
Gözlərini döyə-döyə…

Sənin qismət payını da
Özgələrə böldürdülər.
Səni özgə qucağında
Ümid kimi öldürdülər.

Bu ölüyə rəhmət deyin,
Xeyri şərə qarışsa da.
Gedirəm, salamat deyin
Ayaqlarım dolaşsa da.

Dərd sinəmə daş tək düşüb

Dərd sinəmə daş tək düşüb,
Məndən uca bir bənd tikib.
Çəpər tutmur gələn dərdi,
Qarşımda neçə sədd tikim..?

Vüsala ümid közərmir,
Arzular həvəsdən düşür.
Əlim əlinə uzanır,
Ürəyim nəfəsdən düşür.

Məni yollar ayrıcında
O kimdi? Saxlayıb gedir.
Od-ocaq vaxtı gəlmədi,
Tüstümə ağlayıb gedir....

Səhərdimi, İlahi

Ağrılar itdi, deyim...?!
İtmədi, dən -dən oldu.
Məni kimlər səslədi,
Ağrıdan tən- tən oldum.

Yuvamın isti yeri,
Ağrı çəkdi, dağ oldu.
Mən bu düşən qəzadan
Bir ürəyi sağ oldum.

Qürbət elin havası,
Zəhərdimi, İlahi!
Mən gecədən çıxmışam,
Səhərdimi, İlahi.!?



Unutmuram, balacam…

Tale bizə heç gülmədi, neyləyək,
Bəxtimizə bir ulduz da doğmadı.
Üzərimdə ətirlənir saç telin,
Kədərinsə hamısından doğmadı.

Hey süzürəm badələri sağlığa,
Sonuncunun canı çıxar, deyirəm.
Səni dartıb çıxarıram canımdan,
Tellərini qucağıma əyirəm.

Bu sevgimə yandırıram üzərlik,
Kədərim var, tüstüsündə boğacam.
Darıxıram, darıxıram unudum,
Unutmuram, unutmuram, balacam...

Bir yalnızlıq sevdim…

Bir yalnızlıq sevdim bu gün,
Qollarım çarpaz sinəmdə.
Üzünə gülə bilmədim,
Gülüşüm qaldı dünəndə.

Heç sənlə də görmədim heç,
Yazın cənnət qoxusunu.
Mən hələ yaxşı sevmirəm
Bu dərdlərin çoxusunu…

Daha bir də geri dönməz,
Yox olub getdiyim gecə.
Boynuna sarıldığım gün,
Çiynindən öpdüyum gecə.

Qayıtmadım o şəhərə..

Qayıtmadım o şəhərə bir daha,
Qoparmışam əllərimi saçından.
Mən də daha darıxmıram, ay Allah
Darıxmıram barmağımın ucunda.

Qayıtmadım o şəhərə bir daha,
Yağışını keçirmişəm çətirsiz.
Mənə qaldı hisslərimin ölüsü,
Bir kişi də belə qaldı ətirsiz…

Üfüqlərdən itib getdi ayrılıq,
Sən adında bir qadın da yox oldu.
Bir sevginin qiyaməti başladı,
Bir sevginin əzabları çoxaldı.

Çıxarmıram yadımdan

Bu günlərin səbri yıxır ömrümü,
Divarlaşır daş ürəyim, ərimir.
Hərdən küsüb uzaqlaşır duyğular,
Ayaq açıb qucağıma yerimir.

Lap dərdimin sol tərəfi yox olur,
Vaxt da gözəl unutdurur hər nəyi.
Başım daşdan-daşa dəyir, heyif ki,
O gözəli unutdurmur sevməyim.

Dərdlər yaxın qabırğadır yanımda,
Bir tikəsi çıxıb getməz qapımdan.
Mən hər şeyi unuduram, İlahi,
Təkcə onu çıxarmıram yadımdan.

Tənhalıqdan sınmışam

Sənin kimi düşməmişəm yadına,
Bir yad kimi unudulub qalmışam.
Cırmaqlayıb cıxarmışam qəlbimi,
Canım çıxıb, üyüdülüb qalmışam.

Hər nəfəsim tək səbirə tuş gəlib,
Ovuc -ovuc göz yaşında çimmişəm.
Mən yenə də ölməmişəm, İlahi,
Darıxmaqdan, tənhalıqdan sınmışam.

Hər bərənin üstündə bir gözətçi,
Bir yol da yox, kəsə gedəm, düz çatam.
Bir yol tapsaz, gəlin mənə deyin ki,
Ayrılıqdan ölməyimə tez çatam..

Öyrəndim

Mən bu vecsiz günlərimi,
Yük etmişəm çiynimə.
Yorulanda, dizin- dizin
Sürüməyi öyrəndim…

Heç kəs xəbər tutmadı ki,
Nələr oldu, eh nələr.
Min yol öldum, öldum, adam,
Dirilməyi öyrəndim…

Ən yaxınım uzaq düşdü,
Canımdan can qopmadı.
Gedən yola qurban deyib,
Sərilməyi öyrəndim.

Sarılmışam, məğrur eşqin
Sədaqətli andına.
Şeirlərdə sevə- sevə,
Öpülməyi öyrəndim.

Sən- o xoşbəxt günlərimdən
Uzaq düşən, ey qadın.
Səndən sonra nəyi qoyub,
Axı nəyi öyrəndim?!

Gecikdirmə…

At, atdığın hədəf düzdü,
Vaxtdı, di gəl, gecikdirmə.
Belə gündə ölmək, ay qız
Baxtdı, di gəl, gecikdirmə

İstəmirəm, bu gedişlə
Zaman ayağımdan çıxsın.
Gedim Allaha yalvarım,
Tirlər dayağımdan çıxsın.

Görən oxmuydu atdığın,
Dəyib kürəyimdən keçdi.
Bu havanı sən çaldırdın,
Mənim ürəyimdən keçdi.

Məcnunun qarğışı…

Bu Məcnunun qarğışımı?!
Ayağı yalın gəzirəm.
Hava yaman soyuqlaşıb,
Dərdimlə qalın gəzirəm.

Ömür günümü qovlayır
Deyir, bala, çat gedişə.
Baxma uduzub oynadım,
Nə qalıb ki, mat gedişə.

Mən yandığım bu ocaqda,
Yanıb yenə kömür çıxdım.
Falçı qarı fala baxdı,
Yaşamağa ömür çıxdı.

Ay qaranlıq guşəsindən…

Ay qaranlıq güşəsindən
Baxır, aydınlıq gecəyə.
Mənim şair könlüm yenə
Çıxır, aydınlıq gecəyə.

Hər yan süküt, ay pərişan,
Dindirirsən, dindir kimi.
Ulduzlarsa göy üzünə
Sərhəd çəkir, məftil kimi.

Dənizin boğuq səsindən,
Pozur gecə ahəngini.
Ay dağıdır göy üzündən
Sahil boyu öz rəngini.

İçin-için ağlar gecə,
Yarpağın şeh damcısından.
Bəd yuxular çəkir məni,
Qurtarmıram acısından.

Ölüm mənlə yatmasın

Ömür həsrət qucağında,
Dərd bizi qocaltmasın.
Ümidlərin qollarında,
Tanrı bizi atmasın.

Ağrıyan başım sərxoşdu,
Yatmıram, belə xoşdu.
Yanaqların niyə yaşdı?
Göz yaşın islatmasın.

Qorumasan sabahımdan,
Kül olaram ahından.
Günahlarım günahında
Gülüm, heç vaxt batmasın.

Sığal çəkdiyim saçına,
Dönmüsən bir laçına.
Görüşümüz de haçana?..
Saatlar uzatmasın.

Agah olmadım bu sirrdən,
Keçdim sən keçən yerdən.
Qucaqla ki, məni hərdən,
Ölüm mənlə yatmasın.

Payızın bir qəmli baxışı var ki...

Payızın bir qəmli baxışı var ki,
Budaqlar ağlayır sarı yarpağa.
Yarpağın bir budaq tanışı var ki,
Ürəyi gəlməyir ondan qopmağa.

Payız baxışıdı yaz günlərimiz,
Budaqdan asılı yarpaq kimiyəm.
Məni ürəyinin alovuna qat,
Bir çırpı həvəsli ocaq kimiyəm.

Payızın bir qəmli baxışı var ki,
İslanıb yağışda dərdini unut.
O qıza məktub yaz, məktub yaz, amma
Səni sevirəm yaz...yenə də unut...

Vərdiş et…

Vərdiş et, ta mənim ayrılığıma,
Üzündə təsəlli cizgiləri hör.
Mən daha çıxmaram sənin yoluna,
Bir çəpər tikmisən, sağlığını gör!

Mənim əllərimdə barmaq izlərin,
Mənim dodağımda, dodaq izlərin.
Mənim yatağımda sevgi hisslərin,
Götur, hissə-hissə parçalara böl!

Mən sənin ömründə sevgi qonağı,
Mənə də pay düşüb-yolun uzağı..
Hərdən sığalına gələn "uşağın",
Ütüsüz köynəyin dodağına sür...

Tanıya bilmədim yalan ömrümü,
Qırx yaşa çatmayan talan ömrümü.
Allahdan hədiyyə qalan ömrümü,
Nazlana -nazlana tək başına sür...

Çıxıbdı yaramın duzu…

Çıxıb ağlayasan bir dağ başında,
Gözünün yaşından şəlalə axa.
Ümidsiz-ümidsiz baxasan elə,
Bu həsrət ömrünün sonuna çıxa.

Daha sevməyəsən o gözəli də,
"Ayrılıq"sözünə şadlıq edəsən.
Yeyib bitirəsən bu dərdi belə,
Yenə istəyəsən, «aclıq" edəsən.

Daha sevməyəsən o nazını da,
Gözündən siləsən baxışlarını.
Enəsən qəbrinə uyumaq üçün,
Tanrı da göndərə yağışlarını..

İçində min ilin sevgisi ölə,
Yalvarsa, qəlbini daş eyləyəsən.
Nə rahat yatıram, İlahi, daha
Çıxıbdı yaramın duzu deyəsən...

Çatmır…

Mənim də qəlbimi ovut, İlahi!
Qəlbimin bir sevinc buxtası çatmır.
Dünyaya baxıram, məzarlıq qutu
Vallah, bir mismarlıq taxtası çatmır.

Olmadı bir yolluq yuva sevinci,
Göylərə yollayaq dua, sevinci.
Bir qız var, istəyir qova sevinci,
Qəlbinə qar yağıb, şaxtası çatmır.

Mənim bəxt evimə ayrı gün düşüb,
Ürəyim həsrətdə, çox əzgin düşüb.
Sevgim qaçqın düşüb, didərgin düşüb,
Durmağa bir sevgi nöqtəsi çatmır.

Mənim də qəlbimi ovut, İlahi,
Qəlbimin bir sevinc buxtası çatmır.
Dünyaya baxıram, məzarlıq qutu,
Vallah, bir mismarlıq taxtası çatmır.

Bitirək evdəki ayrılıqları

Səni də bir yolluq unutmaq olmur,
İllər məndən küsüb, ömürdən gedib.
Sənlə bir yarımçıq ömür yaşadım,
İndi ayılmışam, ömür tən gedib.

Mənim taleyimin sığortası yox,
Sən elə bilirsən kədərim yoxdu.
Mən sənin başının üstə əsirəm,
Amma öz başımdan xəbərim yoxdu.

Bu nağıl ömrümün xatirəsi qəm,
Köhnə kitabların kif varaqları.
Sən bizə qonaq gəl, ay ömrüm günüm,
Bitirək evdəki ayrılıqları.

Mən gələnə nə qalıb ki…

Mən gələnə nə qalıb ki, əzizim,
Mən gələnə bir qış qalıb, yaz qalıb.
Baş qoyduğum balıncın zərbəsiylə,
Bu gecəni bitirmişəm, az qalıb.

Ocaq sönür, üfürmürsən közü sən,
Doldurubsan bu piyalə gözü sən.
Qəlbindəki o köhnəlmiş sözü sən,
Deyəmmirsən, heç olmasa yaz, qalıb.

Tərs baxışdan təbəssümə yol gəlib,
Üzü bəri dərddən çoxdu, bol gəlib.
İlahidən mən tərəfə qol gəlib,
Yanımdasa boynübükük qız qalıb.

Çarə yoxdu, tapılmaz bir həkim də,
Göy üzünə çəkilibdir çəkim də.
Sən qazdığın qəbirlərin içində,
Təkcə mənim qəbrimdi, dayaz qalıb.

Öldürdüm..

Yuvarladım yalan ömrün daşını,
Qucaq açan həvəsimi öldürdüm.
Ciyərimə qurtum- qurtum çəkdiyim,
Doğma olan nəfəsimi öldürdüm.

Öldürdüm o, dəli- dolu günləri,
Öldürdüm o, tənha keçən illəri.
Qopardım o, soyuqlaşan əlləri,
Hıçqırıqla öz səsimi öldürdüm.

İstək olub arzulara qarışan,
Məhəbbətin alovunda gurlaşan.
Bir qadının yollarında dolaşan,
Yalnış olan ən pisimi öldürdüm.

Sevgi tapdım, əzabları bitməyən,
Ağrı tapdım, ürəyimdə itməyən.
Çağıranda köməyimə yetməyən,
Yaxın olan hər kəsimi öldürdüm.

Darıxdım…

Əlimizi çətir kimi tutardıq göy üzünə,
Bir gün payız yağmurunda islanaraq
qayıtdıq.
Mən unutdum dedim o gün,
səndən sonra olmadı,
Cəmi bir gün sevdim səni,
illər boyu darıxdım…

Cəmi bir gün sevdim, dedim,
dedim, sən də inandın,
Sonra hər gün kölgələndin ürəyimin başında.
Mən sevərəm məhəbbətin
həsrətində yanmağı,
Ömrün sarı payızında, ömrün donan
qışında.

Bu qürurun hukkəsinə
qurban vermə bu eşqi,
Gəl, həsrəti çək sinəmə, qollarımı kilidlə.
Mən boşluqlar arasında gəmirəndə içimi,
Sədəf olar göy üzündə işıldayar ümidlər.

MƏNSUR ŞEİRLƏR

Bu da sonuncu görüş...
Saatın amansız dəqiqələri,
ömrün iztirablı saniyələri...
Cibimdəsə ölmüş telefon jetonları...

Qəriblik xəstəliyim…

Mənim qəriblik xəstəliyim
günəşin üzümə qeyri- adi baxışından başladı
və mən başqa şəhərdə olduğumu anladım..
İlk dəfə təyyarə qanadlarını yuksəkliyə
qaldıranda anlamışdım
başqa şəhərin sakinləri olduğumuzu
və bir gün Şeksna çayının sahillərində boş,
yellənmiş əllərimin bosluğundan tutmuşdu
ayrılığın...
Sonralar daha uzaqları sevdi qismətim...
Biskay korfəzini işıqlandıran günəşin sərt
üzündə yandı həsrətim..
O gündən ümidimin qaynar yerindən
tüstüləndi həyat...

Uzanan yollar əngəldir dönməyimə…

Bizim evdən palıd ağacının kölgəsinə
qədər yol qalıb ölməyimə...

Bizim evdə hamı o yol qədər
yaşadı ömrünü...
Cəhənnəmdən qorunmaqçün kölgəsi var,
ən azından…
İstilər düşən kimi yadıma düşür
o kölgəli, pəncərəsiz, qapısız evim...

"Andalus" elində o palıdın
sərinliyi kimi üşüyür yatağım.
Doğmalarımın həsrəti dolur
dördkünc otağıma...
Eşikdəsə hamı həftə sonu istirahətini
yaşayır adam kimi....
Sanki yorğun günlərin ağırlığı qalxır
zəhmətkeşlərin qollarından göylərə sarı...

Burda nağıllar kimidir insanların
yaşama sevdası..
Ölum yatağında ehtiraslıdır insanlar,
günəşlə sevişməkdir sevdaları...

Zövqləri soyunmaq qədər sadədir,

sevgiləri günəş şüaları qədər tələskəndir,

anidir...

Yenə gəldiyim yollar kimi uzanır ayrılığım...
Boğazımda qızımın boynumu həsrətlə qu
caqlaması, qəhər kimi sıxılıb...
Bu gün yenə Allah yaratdıqlarına mərhəmət,
sevgi, vüsal paylayırdı göy üzündən...
Ovcuma göylərdən qəm düsdü misra-misra,
vərəq-vərəq..
Qundaqdakı körpə kimi deyildim, soyuna
bilmədim dərdlərimi aşkarcasına,

qaçıra bilmədim əllərimi qəm
yağmurundan...
Yenə palıd ağacının sərinliyinə qovuşmaq
qədər yol getmək qalır ölməyimə.
Hələ də uzanan yollar əngəldir dönməyimə...

Gün bitdi

Gün bitdi...
günəş getdiyi yolu bitirdi,
gözlərimsə uzaq yolları..
Balıqlar yuvasına döndü, kəpənəklər
güllərdən qopdu,
quşlar nəğmələrini yarımçıq qoydu,
sahildə qağayılar aradan çıxdı...
Ayaqlarımı yandıran qum dənəcikləri
Çırpılmaqdan yorulub üzüqoyulu düşdü...
Günəş yuvasında gizləndi...

Qıvrımsaç qız...

Bir şeir yazım sənə qıvrımsaç qız...
Bir öpüş olum saçlarının ucunda.
Ag çiynindən tökülən dəniz dalğası saçların üzümə toxunsun,
kipriklərin qayçı kimi kəssin baxışlarımı...
Oda salsın gözlərinin qarası...
Bir də,
Yağışlı havalarda çətir tutma, nə olar,
Bu yağışlar- mən rəssamın fırçası…

Susuzluq da qəriblik kimidi...

Susuzluq da qəriblik kimidi,
pəncərən payıza açılır....
Yağış yarpaqlardan süzülür
çatlamış dodaqlarına...
Mələklər də yerə enir, deyirlər...
Çaylar da əvvəlkinə bənzəmir, qırıq
budaqlar küləyin güdazına gedir…
Axan çayın divarlarına toxunduqca kiçilir,
yox olur...
Unutmaq-uzaqlara köç etmək deyil...
Və bəzən belə də olur, okeanın o tayında səni
xatirələrə daşıyan yaddaşını itirməlisən.
Ən kobud səslərə qatıb,
qulaqlarında eşidilməsin
deyə almalısan o gözəl səsini..
Çiçək -çiçək buketlər yığılır sifarişlə**…**
Pəncərəsi qırıq, yaxası dar ömrüm,
Sıxılır boğazı dar ağacından…
Nəfəsim aynalarda yox olur,
Ruhum canını tapşırır son yarpaqlarda...
Hər şeyə son verir içimin arzuları,
rahat yol keçidində çırpılır asfalt
döşəmələrə...
Qanımı içib doymayan sevgi qəbristan
yolunun on addımlığında ölur…
Çiçək -çiçək buketlər yığılır sifarişlə.

Marisol…

Marisol, saçlarının ağında işıqlanır hər
açdığın sabahlar...
Dünənin bu gününə əlvida kimidi...
Biz sovet adamları elə ola bilmirik,
senyorina...
Bizim qapımızın zəngi çalınanda
həyəcandan ayaq üstə ölənlərimiz olur..
Senyorina, bilirsən ?!
İnsan var, həm günəşi sevir,
həm də yağışı...
Adam da var göz yaşlarında yaşamağı sevir...
Və bir də, yağışı sevənlər günəşi heç vaxt
yağış qədər sevmir…

Hərdən…

Hərdən layiq olmadığın yerdən vurularsan.
Güllələr dəyərlənmədiyin yerlərin acısı kimi köksündən yaralar açar.
Günəşə salam deyərsən,
o isə səndən yan gəzər.
Dənizə tərəf qaçarsan, qayaların üzünü
cırmaqlayar.
Məlhəm bildiyin ümidlər dəniz köpüyü tək yox olar.
Yenə üzü torpağa, dəqiqələri düşüncələrinə qurban verərsən.
Hər şeyə son deyib qayaların zirvəsindən asarsan pislikləri.
Tək onun varlığına şükür edib qayıdarsan
yolçuluğuna.

Gizlənpaç oyunu…

Gizlənpaç oyununu heç sevmədim.
Sən də sevmə bu oyunu!
Yenə qağayılarla dolu dəniz havasındayam...
Günəş yox göy üzündə.
Küləksə soyuğuna bürünüb məni
qovmaqdadı...
Qumlu sahilin şırıltısı var qulaqlarımda.
Allaha yorulmadan dua edən,
Muradına hələ də yetməyən milyonlar
gözləyir sıxıntıda...
Yenə köhnə qanunlarda yaşayır şəhər..
İnsanların haqları məhkəmə zalında hər gün
Min yol tapdalanmış küçə kimidi...
Daha darıxmağım da keçib.
Özümə içində sən olmayan ürək
düzəltmişəm.
Tibb məntəqəsində qanımı təzələdim ki,
daha ürəyimə enməyəsən..
Axmayasan şah damarımda..
Üzümdəki cizgilərdə hiss etməsinlər səni.
Təmizlənmişəm şıltaqlığından,
ərköyünlüyündən,
Yoxluğunu hiss etməyindən.
Nə yaxşi ki, azadlığa cıxmısan
damarlarımdan...
Ürəyim əməliyyatsız kiçilir get-gedə..
Yumruğumdan yüz dəfə kiçik olmanı
istəyirəm...

Bir ovuc mirvari suyu

Mən anamın göz yaşlarında boğulmaq
öyrənmişdim
atamızı itirəndə...
Onda çox xoşbəxt uşaqlığımız vardı
sovetdən qalma kəndimizdə...
Atam anama mirvari boyunbağı almışdı
bir dəfə...
Anam o boyunbağını hardasa salıb itirdi
çox sonralar...
Dənizin bir addımlığında
həmişə balıqların sevimli oyuncağı zənn
etmişdim ağ mirvari dənəciklərini...
Yenə gözlərində işıq yansın deyə mirvari
dənəcikləri gəzirdim anamın boynuna...
Göz həkiminin diaqnozunda
həsrəti bitdi anamın...
Gələn daşqın sularında tapıldı bir ovuc
mirvari suyu...

Qürurlu müəllim uşaqlarıydıq…

Gəncliyimiz də uşağlığımız kimi
iztirab doluydu...
Uşaqlığımız,
Anamızın bişirdiyi təndir çörəyinin dadında
xoşbəxtliyini tapırdı.
Odun peçinin istiliyində,
kürəyindən xumarlanırdı ümidlərimiz.
Biz- sovet uşaqları, göz yaşı tökmədən
ən xırda şeylərdən sevinərdik.
Nənəmizin, babalarımızdan qalma
köhnə evində,
yaşıl işıq kimi keçərliydi həyat…
Geyindiyimiz rənglər əynimizdə
dəyişməzdi il boyu..
Pencəyimiz, qış gödəkçəsini biz tələbə bileti
alanda dəyişdi.
Elə bil uşaqlığımız Şəhrizadın
Şəhriyar şaha söylədiyi
"Min bir gecə" nağılıydı.
Biz, kədər dolu, yoxsul, amma qürurlu
müəllim uşaqlarıydıq.
Bizim həyat dərsindən kəsrimiz
heç vaxt olmadı.
Nənəmizin ağrılı həyat romanı, bizim
yaşadığımızı çoxdan unutdurmuşdu.
Biz nənəmizin yanağına axan göz yaşını
çoxdan içimizə axıtmışdıq.
Sovetlər ölkəsi bizi ümidlərinə pərçimləyib
atamızın təmiz,

heç vaxt kirlənməyən əllərinin zəhmətilə
böyüdürdü.
Çünki yanımızda, keçmişimizdə
beş körpəni böyüdüb,
kişi kimi qadın yox,
qadın kimi qadın olaraq
gələcəyə yola salan nənəmiz vardı...
Nənəmiz dünyasını dəyişəndə ikicə damcı
ağlaya bilmədik.
Hələ üstəlik o yaşayan evin xatirələrini
altını -üstünə çevirdik.
İndi nənəmiz də, babamızın yanına köçüb.
Köçüb deyirəm…
Bizsə hər dəfə əşyalarımızla birgə
köçhaköçdəyik…
Məkanı bəlli olmayan yer sakinləri…

Bir qadın əlləri düşün..

Bir qadın əlləri düşün...
Sənin toxuna bilmədiyin…
Bir mənalı gülüş axtar, sənin
gözlərində gülə bilən...
Bir dəli sevgi axtar sonsuzluqda,
uzaqlaşıb arxasında tənhalıq qoyan...
Və bir də gedişlərin möhtəşəmi- tənhalığın
səssiz otaqda hönkürüb
ağlamaq səsini dinlə!

Bir ayrılıq böyüt…

Zərrə- zərrə böyütdüyünü,
misra-misra vərəqlərdə unut!
Uşaq körpəliyini, saflığını dəyiş,
bir dəstə qərənfil düz, səndən qopduğu yollara..
Bir ayrılıq böyüt, qara rəngli,
bir ayaq sındır o yollara
dönə bilməyən...
Bir nəfəs boğ, havası çatmayan...
Bir ömür oğurla,
içində səadət tapmayan…

Bir yalqızlıq yaşa, ocağı sön deyən..
Bir azadlıq axtar,
gecəsi əlləri qandallanmamış...
Bir yaraşıqlı çiçək qır, saplağı böyüməyən…
Sonra,
Sonra isə divara zillənən baxışlarda qal..
Həkim məsləhətində təsəlli axtar...

Cızdığım ürək şəkli...

Hər şey yalqızlığımla başladı və bitdi...

O gün kəpənəklər də yağmurda
qanadlarını itirdi,
Torpaq suyunu kəsdi çox sonralar,
hər şeydən...
Çəmənliklərin sinəsinə sarılıq
xəstəliyi daraşdı...
Sənin məktəbli çantanda qaldı
mənim çızdığım ürək şəkli...
Nə sən ona adını yazdın, nə də mən yiyə
dura bilmədim sonuna qədər...
Başım tətillərə qarışdı xəyallarımda...
Dünyanın ən uca zirvələrində şəkillər
çəkdirdim sənlə...
Tez böyüdük...
Sürət qatarlarında qəzadan sağ çıxdım
və bir gün təyyarə qəzasında sol
qanadından qırıldım...
Pasportum gödəkçəmin cibində sənin
şəklinlə açıldı....
Qəzetlərin ilk səhifəsində yayımlandı
fotolarımız..
Nə bəxtəvər kədəri vardı insanların...
Və biz belə xoşbəxt ola bildik...

Etiraf…

Sən,
son zamanlar üzümə heç vaxt
xoş baxmayan güzgüm kimisən.
Bir az inadkarsan, bir az tərssən...
Sözlərin küsəyənlik gətirir
dağılmış həyatıma.
O səhər ki, qaşqabaqla sürüyürsən
məni getdiyim yerə,
bəd duana düşən ürəyimdən,
əllərimdən, ayaqlarımdan qırılıram.
Bütün günü qaşqabağımdan asılıram.
Sən, dağınıq saçlarıma düzənlik gətirən
o qızsan.
Yenə yoxluğunda tək divara güllələnmiş
əsir kimiyəm.
Qollarım qadın kürəyində əllərimi sıxmaz...
Yaddaşım xətirələrlə zəngin, qara günlərim
həsrətə yaxalanan
yırtıcı canavar kimi…
Sən, ayrılığa əngəl olmağa çalışan,
daha üzüntülərə tab gətirməyən,
ayrılıqdan dəliyə dönən o xanımsan.
Mənim tənhalığa sürüklədiyim qadın…

Ayaqyalın gəzirdik…

Babalarımız paslı xəncərlərdən ölməyi, güllə
yarasından ölməkdən şərəfli sanardı...
Ölməyin şərəflisi olur, öldürülməyin yox...
Əgər sonunda Tanrıya qovuşmaq varsa
əzəmətli görünürsən,
Adəm övladı.
Bir yolluq seçimini et, azad, rahat
yaşamağı seç!
Çəpərlənmiş dünya xəritəsini ayaqyalın
gəzirdik bir vaxtlar.
Sonra şəkilli pasportumuzla
gömrük mayorunun sərt baxışında
möhürənməyə başladı hər addımımız.
Ey, Allahın azad bəndəsi,
indi qəfəs halına şükür et,
dualarını mələklərə eşitdir..

Əziz dostum….

Yalqızlığın qoxuduğu şəhərdə
neçə nəfər qaldıq, əziz dostum?!
Mən, sən və zülmətini başına örtmüş
qara buludlu şəhər...
Zaman Marisolun qol saatında iri
addımlarla tələsməkdədir məzarlığa sarı..
Kəpənək uçuşlu bir ömür bitiririk
dəli küləyin qayalara çırpdığı
sərt dalğaların zərbələrində...
Emilio çörək dükanında bərəkətli
ömür arzulayır gələcəyinə.
Pablo insafını bir az gec, sonuncu hesab
qəbzini, südlü kofesini tərifləyən senyorun
əl ağacından əlil
arabasına enməsindən sonra
tapdı, nəhayət ki...
Yalqızlığın bir otaqlı, bir çarpayılı,
bir masalı və pis qoxulu olduğunu
söylədilər bizə.
Əziz dostum,
Yalqızlığın siqaret tüstüsündə zəhərlənib
işıqlı sabahları olmur dedilər və
unutdular ki,
bir təsəlli yeri olmalıydı insanın,
Olmalıydı...
Və bir də bizə öyrətmədilər ki,
yalqızlığa özünü qayalardan atmaqla yox,
içki şüşələrinin dibinə enməklə yox,
bir qadının qəlbində var olmaqla qalib
gəlmək olur.

Bir cüt təsəlli və bir ürək şəkli

Bütün şəhərlər doğma olur zamanla,
Bütün insanlar ögey olur sevənə qədər…
Bütün şəhərlər yaddaşında
saxlayır doğmalarını,
bütün ögeylər unudur tanıdıqlarını...
Mən də bir şəhər buraxdım arxamca
doğmalarla dolu,
Sonra ögey şəhərlərdə doğmalaşmağa
adam gəzdim.
Bütün çəpərlər bölgülərdə kiçik xəritələr
yaratdı,
amma bütün xəritələr bir
dünya xəritəsiymiş sən demə.
“ Şəxsən özünə çatacaq”
yazdığımız məktublar,
əldən ələ keçərək sahibinə yetişirdi.
İndi nə quş lələyi var,
nə də ki, möhtəşəmlik yaradan
mürəkkəblə yazılan məktublar...
Sən də məni qınama bu uzaqlıqda...
Bir az xoşbəxlik gətir səhər yeməyimə.
Bir cüt təsəlli və bir ürək şəkli!

Mənim ümid doktorum…

Mənim ümid doktorum,
qopan qaya parçası okeanın dibinə endi.
Daha sərt dalğalara dözməyə
canında tab qalmamışdı.
Öldü demirəm...
Yaz gəlir deyə ağaclar payızın
acılarını unutdurdu...
Qoparıb atdım yaramın son qaysağını.
Bu gün daha ağır gün deyil,
düşünmüşdüm...
Pəncərə şüşələrini silən Vanesa,
sənin şəhərlər xaraba qoyan pilot sevgilin
bu gün atılan mərmilərdən
dünyasını dəyişdi!
İndi, gilas yanaqların solmuş,
dərdin şabalıd rəngində,
Möcüzələr hamını xilas etmir demək ki...
Təbiətin yuxusu qarışıb,
səhər açılmaq bilmir...
Mənim ümid doktorum,
Gümüşü sırğalarını daha çox sevən
biri vardı həyatımda...
Yalqızlıqdan məni tamamlayırdı
yazdığı hər misrasında...
Xəbərsiz qalanda mübtədası olmurdu
yaşadığı ömrün...

Mənim huşsuzluq xəstəliyim

Küçə gülüşlərindən diksindim
və bir anlıq geriyə boylandım..
Uzaqlıq boyda məsafələr kiçilsin, istədim..
Saat əqrəblərinin gücü çatmazdı
o dəqiqələrə dönməyə..
Sən səssizliyində eşq böyüdən cani
kəsilmişdin yalqızlığıma.
Gəmilər dayanmaz bəzi sahillərdə..
Kapitanlar çox darıxar limanlardan ötrü…

Gündüzün gecə vaxtı kimi görünər
yaşadıqların.
Səndən sonra nə qaldı bir ömür boyunca?..
Bir bardaq soyuyan murəbbəli çay
və mənim huşsuzluq xəstəliyim...

Bir şəkil çəkdirdim şəhərlə...

Bir şəkil çəkdirdim şəhərlə...
deməsinlər tənhaydı, təkdi, yalqızdı.
Bəlkə, xəbəri vardı çoxunun...
İndi heç bilmirəm neçənci ayın otuz biridi...
Yazın nəfəsindən payız qoxusu gəlir.
Elə bil ağaclar yarpaqlarını yaşıl
rəngdə tökür,
dənizlər dalğalarını geriyə qovur,
Təpələr dağlara baxıb yalqızlıqdan ölür...

Yalnızlıqdır

Dağıt saçlarının qaranlığını,
Ağ günə çıxmağa...
Günəşdə istilik axtarma,
Mən yoxam deyə...
Qış soyuq olur deyə üşümə,
Yalnızlıqdır əzizim,
yalnızlıqdır...

İsti günlərdə üşüyər əllərin...

Bir gəmi dayanar Santander sahillərində...
Hər gün orda bələdçilik edər ümidlərim,
gözlərim bir baxış gəzər
həsrətdən yorğun, sevgiyə ac...
Hava limanından təyyarələr əl sallayar,
ayrılıb geri döndüyündə...
Bir dəlilik boğar məni hər dəfə
səbrimə qısıldığımda…
Sənsə...
Bir az yalnızlığını ovarsan,
bir az gecəyə düşər ürəyin…

Məni gözləməkdən yorulmaq
qədər əzilərsən...

Yenə böyük ürəklə aşiq olarsan ümidlərinə…
Mənsə qayıtmaram o küləkli şəhərə.
Burdakı yağmurlara düşərəm,
daldalanaram Sardinero prospektində…
Ən çox isti günlərdə üşüyər əllərin...
Bu necə soyuqdu, İlahi?
Bu böyük dünyada kiçik təsəlli
gəzərsən ağlaşan ümidlərinə…
Mənsə pusquda dayanaram,
həssas ürəyində partizan
casusluğunda...

Bulaşdırdılar…

Kirli pəncərəmizin şüşələri tək bulaşdırdılar
təmiz duyğularımızı....
Qapı cırıltısından bayquş səsinəcən,
beynimizi silkələdi eybəcər,
həyatımıza zorla mudaxilə
edən bərbad ruhlu insanlar...
Bu yaşantının solğun şəklini
o rəssam dediyin adam da
əks etdirə bilməzdi...

Mündəricat

ŞEİRLƏR

Ayrılığı sal yadıma….....5
Üşüyürəm, əzizim….....6
Yenə yaxınlaşdım uçuş xəttinə 7
Qarğışlarım var.....8
Ağrısını ürəyinə geydiyin….....9
Yığın, küçə-küçə bizi… 10
Könlümü oynatma daha… 11
Elə vurulasan payızlığına… 12
Şeir kimisən….....13
Yenə gəldim….....14
İçimdə ağlayan adam….....15
Bağışla.....16
Bir yuva qurmuşduq….....17
Bir qadın tanıdım… 18
Sənin soyuqluğun… 19
Çiçəkləyən əllərim… 20
Qız, baxtına çıxdım yola.....21
Biskay körfəzi... 22
Səndən sonra.....23
Çemodanlar ömrümüzə yük.. 24
Məni elə qısqandır 25
Bir gün.. 26
Günümü bərk sıxmışam... 26
Bu mənəm… 28
Əllərin…. 29
Üşüyür 30
Yaza-yaza qalmışam... 31
Səni mənə gətirmədi…. 32
Baxma bu payızın sözünə…. 33
Barmaqlarım sözə baxmaz…. 34

Nağıl kimi sevməyi var.. 35
Kimsəsizlik havası.....36
Qol-boyun olmuşam….....37
İşığı yandır 38
Ta ölüm qorxudar kimi.....39
Ömrümün sənli gùnləri... 40
Elə bilmə ölmüşəm… 41
Ölmürəm 43
Bir payız sevgisi gələ… 44
Nəyimə lazımdır 45
Salam….....46
Əldə du-bir gəzirəm 47
Ütüsüzdü köynəyim….....48
Yaman soyuqlaşıb… 49
Sevmək-sevilmək 50
İlahi, bir yol eylə.....51
Ortada ayrılıq var….....52
O qız çaşbaş düşüb… 53
Məhəbbətin qapısı bağlı oldu.....54
Ömür səkilərdən sürüşkən olub.. 55
Bir ağlıçaş qız bəxtinə.....55
Sındırıram aynalardan qəlbimi.....56
Səndən sonra….....56
Bizim elin əsmər qızı… 57
Məni yenə uğursuz sev… 58
Qayıt….....60
Sonuncu ümidim.....61
Əllərim Tanrının eşq süfrəsində 62
Qələm də söz boyu şütüyür… 63
Söydürmə mənə 64
Eşq Allahdan pay deyil 65
Tikərəm kölgəmi ayaqlarıma 66
Nənəmə yazdığım şeir... 67

Gəlir.....68
Dərdin aşından… 69
Mənə əyri baxanım… 70
Bulud, mənlə oynama 71
Bir dəli ağlamaq gələ… 72
Ad günüm… 73
Çırpdı sahilə.....74
Gedirəm.....75
Dərd sinəmə daş tək düşüb 76
Səhərdimi, İlahi 77
Unutmuram, balacam….....78
Bir yalnızlıq sevdim… 79
Qayıtmadım o şəhərə.. 80
Çıxarmıram yadımdan 81
Tənhalıqdan sınmışam 82
Öyrəndim 83
Gecikdirmə….....84
Məcnunun qarğışı… 85
Ay qaranlıq guşəsindən… 86
Ölüm mənlə yatmasın 87
Payızın bir qəmli baxışı var ki... 88
Vərdiş et….....89
Çıxıbdı yaramın duzu… 90
Çatmır… 91
Bitirək evdəki ayrılıqları 92
Mən gələnə nə qalıb ki… 93
Öldürdüm.. 94
Darıxdım… 95

MƏNSUR ŞEİRLƏR

Qəriblik xəstəliyim….....99
Uzanan yollar əngəldir dönməyimə… ..100
Gün bitdi 102

Qıvrımsaç qız... 103
Susuzluq da qəriblik kimidi... 104
Marisol… 105
Hərdən… 106
Gizlənpaç oyunu… 107
Bir ovuc mirvari suyu 108
Qürurlu müəllim uşaqlarıydıq… 109
Bir qadın əlləri düşün.. 111
Bir ayrılıq böyüt… 112
Cızdığım ürək şəkli 113
Etiraf… 114
Ayaqyalın gəzirdik… 115
Əziz dostum… 116
Bir cüt təsəlli və bir ürək şəkli 117
Mənim ümid doktorum… 118
Mənim huşsuzluq xəstəliyim 119
Bir şəkil çəkdirdim şəhərlə... 120
Yalnızlıqdır 120
İsti günlərdə üşüyər əllərin... 121
Bulaşdırdılar… 122

Nəşriyyat redaktoru: Elvira Nadir qızı
Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 09.07.2019
Kağız formatı: 84x108 1/32
Həcmi: 8 ç.v; Sifariş: 47; Sayı: 300

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Alatava I, Ə.Salamzadə küç 9C.
Tel.: (050) 593 27 77;
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com